| | | |
|---|---|---|
|  | **Fənnin adı, kodu və kreditlərin sayı** | EDU 438 Coğrafiyanın tədris metodikası, 6 AKTS |
| | **Departament** | Coğrafiya və Ətraf mühit |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2023/24-cü tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim(lər)** | Məmmədli Elvira Vasif qızı |
| | **E-mail:** | elvira.mammadli@khazar.org |
| | **Telefon:** | +994558552030 |
| | **Mühazirə otağı / Cədvəl** | |
| | **Konsultasiya vaxtı** | |

| | | | |
|---|---|---|---|
| **Tədris dili** | Azərbaycan | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Seyfullayeva N.S. Coğrafiyanın tədrisi metodikası. Bakı 2011<br>2. Oktay Alxasov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2013<br>3. Nəzər Eldarov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2008<br>4. Akif Nəzərov. Muasir təlim texnologiyaları. Bakı 2012<br>5. Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı ( kurikulumu). Bakı 2013<br>6. Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üçün coğrafiya fənni üzrə kurikulum. Bakı 2022<br>7. Veyisova. Z. Fəal/interaktiv təlim:Müəllimlər üçün vəsait.2007<br>8. kurikulum.az<br>9. Müəllimin əlavə elektron mühazirə materialları. | | |
| **Tədris metodları** | Mühazirə | | + |
| | Qrup müzakirəsi | | + |
| | Fərdi tapşırıqlar | | + |
| **Qiymətləndirmə:** | Komponentləri | Tarix | Faiz (%) |
| | Aralıq imtahanı | Noyabr ayında | 30 |
| | Davamiyyət | Semestr müddətində | 5 |
| | Aktivlik | Semestr müddətində | 5 |
| | Quiz | Semestr müddətində | 10 |
| | Tapşırıq | Semestr müddətində | 10 |
| | Final imtahanı | Yanvar ayında | 40 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | Coğrafiyanın tədrisi metodikası kursu müasir pedaqoji yanaşmalara əsaslanaraq coğrafiyanın tədrisinin fərqli xüsusiyyətlərini, fəal təlim üsul və formalarından, resurslardan məqsədəuyğun istifadəni, yeni qiymətləndirmə vasitələrinin hazırlanması bacarıqlarının formalaşmasını və dərsin məqsədləri, məzmun standartlarının funksiyaları və əhəmiyyətini müəyyənləşdirməyi təmin edir. | | |
| **Kursun məqsədləri** | ’Coğrafiyanın tədrisi metodikası” kursu əhəmiyyətli elm sahələrindən biri olub, yüksək ixtisaslı coğrafiya müəllimlərinin nəzəri-metodik hazırlığında böyük rola malikdir. Kursun əsas məqsədi ümumtəhsil məktəblərində işləmək üçün hazırlanan coğrafiya müəllimlərinin ixtisası üzrə intellektual və peşə hazırlığının | | |

| | |
|---|---|
| | yüksəldilməsi və təkminləşdirilməsidir. Daim dəyişərək inkişaf edən sosial və iqtisadi sahələrdə, ictimai həyatın bu və ya digər istiqamətlərində baş verən yenilikləri öyrənməyi, mütamadi olaraq biliklərini təkmilləşdirməyi bacarıq və vərdişlərə çevrilməsini coğrafiya müəllimlərinin qarşısında məqsəd qoyur. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursun sonunda tələbələrdə aşağıdakılar formalaşacaq:<br><br>1. Coğrafiya fəninnin tədrisinə dair pedaqoji və metodik hazırlığın təmin olunması.<br>2.Coğrafiya dərslərinin öyrədici, inkişafetdirici və tərbiyəedici məqsədlərinin müəyyən edilməsi.<br>3. Müəllimin fasilitasiya bacarıqları, onların inkişafı və tətbiqi yollarının müəyyənləşdirilməsi.<br><br>4. Məzmun standartlarının bilik və fəaliyyət hissələrinin təlimə göstərdiyi təsirin müəyyənləşdirilməsi və onun tətbiqi.<br><br>5. Müasir dərsin qurulması, məzmun standartlarına uyğun təlim məqsədlərinin müəyyənləşməsi.<br><br>6. Təlim məqsədlərini həyata keçirmək üçün məqsədəuyğun üsul və formalardan istifadə etmək bacarığının formalaşması.<br><br>7. Müasir tələblərə cavab verən dərs nümunələrinin hazırlanması.<br><br>8.Şagird nailiyyətlərinin qiymətləndirilməsi və vasitələrin hazırlanması.<br><br>9.Coğrafiya fənni üzrə müstəqil şagird yaradıcılığının təşkil edilməsi istiqamətlərinin müəyyənləşdirilməsi. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Tələbənin dərsdə iştirak etməməsi onun “Davamiyyət” balına yazılır (maksimum 5 bal). Hər 2-ci qaib tələbənin 1 balını silmiş olur.<br>Aktivlik 5 balla qiymətləndirilir. Belə ki, bir neçə keçirilən dərs şifahi olaraq hər tələbədən soruşulur və cavabın keyfiyyyətinə görə 5 ballıq şkala ilə qiymətləndirilir. Semestr ərzində alınan balların həcmindən orta bal çıxarılacaq. Tələbənin özünü dərsdə diqqətli aparması, nizam-intizamı pozmaması, başqasına dərsi dinləməyə mane olmaması tələb olunur. Tələbə tərəfindən belə hallar təkrarlanarsa, onun “aktivlik” balından çıxılır.<br>Quiz 10 balla qiymətləndiriləcək. Quiz sualları test formasında veriləcək. Semestr ərzində 2 dəfə quiz olacaq. Hər biri 5 bal olmaqla. Cəmi 10 bal.<br>Tapşırıqlar hər bir tələbəyə fərdi verilir və maksimum 10 balla qiymətləndirilir.<br>Qiymətləndirilmə meyarları bunlardır:<br>1. Mövzunun tam əhatə olunması (3 bal)<br>2. Ən son, çox köhnə olmayan materiallardan istifadə (2 bal)<br>3. Alınan nəticələrin konkret və elmi baxımdan məntiqli olması (3 bal)<br>4. Verilən suallara cavabların verilə bilməsi (2 bal)<br>Tapşırıqları təhvil tarixindən gec təqdim etmiş tələbə avtomatik olaraq 1-2 bal itirmiş olur.<br>Aralıq və final imtahanları yazılı açıq sual və test formasında olacaq |
| **Cədvəl (dəyişdirilə bilər)** | |

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik |
|---|---|---|---|
| 1 | | Coğrafiyanın tədrisi metodikası bir elm kimi. Fənnin predmet, məqsəd və vəzifələri, tədqiqat metodları. Coğrafiyanın tədrisi metodikasının digər elmlərlə əlaqəsi. | 1. Seyfullayeva N.S. Coğrafiyanın tədrisi metodikası. Bakı<br>2. Oktay Alxasov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2013<br>3. Müəllimin elektron mühazirəsi № 1 |
| 2 | | Məktəb coğrafiyasının və onun metodikasının inkişaf tarixi. Coğrafi fənni üzrə yeni şəxsiyyətyönümlü təhsil proqramının (kurikulum) strukturu, əsas xüsusiyyətləri və ənənəvi proqramdan fərqli cəhətləri. | 1. Nəzər Eldarov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2008<br>2. Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı ( kurikulumu). Bakı 2013<br>3. Müəllimin elektron mühazirəsi № 2 |
| 3 | | Coğrafiya tədrisində müəllim və şagird münasibətləri, coğrafiya müəlliminin əsas vəzifələri, coğrafiya tədrisinin başlıca prinsipləri. | 1. Seyfullayeva N.S. Coğrafiyanın tədrisi metodikası. Bakı 2011<br>2. Oktay Alxasov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2013<br>3. Nəzər Eldarov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2008<br>4. Müəllimin elektron mühazirəsi № 3 |
| 4 | | Coğrafiya fənninin məzmun və fəaliyyət xəttləri. Məzmun standartlarının şərhi və funksiyaları. | 1.Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı ( kurikulumu). Bakı 2013<br>2. Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üçün coğrafiya fənni üzrə kurikulum. Bakı 2022<br>3. Müəllimin elektron mühazirəsi № 4 |
| 5 | | Coğrafiya və həyat bilgisi fənnlərinin məzmun standartlarının komponentləri. Biliyin kateqoriyaları və fəaliyyət növləri, onların təhlil edilməsi. | 1. Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı ( kurikulumu). Bakı 2013<br>2. Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üçün coğrafiya fənni üzrə kurikulum. Bakı 2022<br>3. Müəllimin elektron mühazirəsi № 5 |
| 6 | | İnteqrasiya və növləri. Coğrafiya fənninin tədrisi zamanı inteqrasiya və onun əhəmiyyəti. | 1. Seyfullayeva N.S. Coğrafiyanın tədrisi metodikası. Bakı 2011<br>2. Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı ( kurikulumu). Bakı 2013<br>3. Müəllimin elektron mühazirəsi № 6 |

| | | | |
|---|---|---|---|
| 7 | | Müasir coğrafiya dərsi: strukturu və mərhələləri. Müasir dərsin təlim məqsədlərinin müəyyən edilməsi. | 1. Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı ( kurikulumu). Bakı 2013<br>2. Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üçün coğrafiya fənni üzrə kurikulum. Bakı 2022<br>3. Veyisova. Z. Fəal/interaktiv təlim:Müəllimlər üçün vəsait.2007<br>4. Müəllimin elektron mühazirəsi № 7 |
| 8 | | Məktəb coğrafiyasının tədrisində motivasiya mərhələsi və onun yaradılması yolları. Motivasiya və tədqiqat sualının qoyulmasına verilən tələblər. | 1. Seyfullayeva N.S. Coğrafiyanın tədrisi metodikası. Bakı 2011<br>2. Oktay Alxasov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2013<br>3. Akif Nəzərov. Muasir təlim texnologiyaları. Bakı 2012<br>4. Müəllimin elektron mühazirəsi № 8 |
| Aralıq imtahanı | | | |
| 9 | | Coğrafiyanın tədrisi zamanı pedaqoji texnologiyalardan istifadə. (1.1, 1.2. əsas standartların alt standartlarının praktik nümunəsində) | 1. Oktay Alxasov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2013<br>2. Nəzər Eldarov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2008<br>3. Akif Nəzərov. Muasir təlim texnologiyaları. Bakı 2012<br>4. _Müəllimin elektron mühazirəsi № 9 |
| 10 | | Coğrafiyanın tədrisi zamanı iş formaları və təlim üsullarının tətbiqi yolları. (1.3. əsas standartın alt standartlarının praktik nümunəsində) | 1. Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üçün coğrafiya fənni üzrə kurikulum. Bakı 2022<br>2. Veyisova. Z. Fəal/interaktiv təlim:Müəllimlər üçün vəsait.2007<br>3. _Müəllimin elektron mühazirəsi № 10 |
| 11 | | İnnovativ dərs nümunələrinin hazırlanması texnologiyası. ( 2.1. əsas standartın alt standartlarının praktik nümunəsində) | 1. Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üçün coğrafiya fənni üzrə kurikulum. Bakı 2022<br>2. Veyisova. Z. Fəal/interaktiv təlim:Müəllimlər üçün vəsait.2007<br>3. Müəllimin elektron mühazirəsi № 11 |
| 12 | | Müasir dərsin planlaşdırılması və ona verilən tələblər. (3.1. əsas standartın alt standartlarının praktik işlənilməsi) | 1. Akif Nəzərov. Muasir təlim texnologiyaları. Bakı 2012<br>2. Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya |

| | | | |
|---|---|---|---|
| | | | fənni üzrə təhsil proqramı ( kurikulumu). Bakı 2013<br>3. Veyisova. Z. Fəal/interaktiv təlim:Müəllimlər üçün vəsait.2007<br>4. Müəllimin elektron mühazirəsi № 12 |
| 13 | | Coğrafiya fənninin tədrisində istifadə olunan əyani vəsaitlər | 1. Seyfullayeva N.S. Coğrafiyanın tədrisi metodikası. Bakı 2011<br>2. Oktay Alxasov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2013<br>3. Nəzər Eldarov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2008<br>4. _Müəllimin elektron mühazirəsi № 13 |
| 14 | | Müasir qiymətləndirmə, məktəbdaxili qiymətləndirmənin növləri, mexanizmləri. Coğrafiya fənni üzrə qiymətləndirmənin üsul və vasitələri. (3.2. əsas standartın alt standartlarının praktik işlənilməsi) | 1. Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı ( kurikulumu). Bakı 2013<br>2. Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üçün coğrafiya fənni üzrə kurikulum. Bakı 2022<br>3. Müəllimin elektron mühazirəsi № 14 |
| 15 | | Məktəb coğrafiyasının təlim vəsaitləri və onların funksiyaları. Coğrafiya üzrə ekskursiyalar və sinifdənxaric işlər | 1. Nəzər Eldarov. Coğrafiyanın tədrisi metodikası. Bakı 2008<br>2.Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üçün coğrafiya fənni üzrə kurikulum. Bakı 2022<br>3. Müəllimin elektron mühazirəsi № 15 |
| Final imtahanı | | | |

Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.